**UOT: 338.432, 338.435**

# KƏND TƏSƏRRÜFATINDA SAHİBKARLIĞIN İQTİSADİ SƏMƏRƏLİLİYİNİN MEYARLARI VƏ GÖSTƏRİCİLƏRİ

**Natiq Sərhad oğlu Mirzəyev, i.ü.f.d., dosent**

***Lənkəran Dövlət Universiteti***
***e-mail: mirzoev.n@mail.ru***

***Xülasə***

*Bazar iqtisadiyyatı şəraitində hər hansı fəaliyyətin iqtisadi səmərəliliyi onun həyata keçirilməsinin ən vacib şərtlərindən biridir. Bu baxımdan sahibkarlıq fəaliyyətinin iqtisadi səmərəliliyinin düzgün qiymətləndirilməsi xüsusi önəm kəsb edir. Səmərəlilik təsərrüfat subyektinin fəaliyyətində təbii, təşkilati, iqtisadi və sosial şərtlərin qarşılıqlı əlaqəsini özündə əks etdirir. Məqalədə aqrar sahədə sahibkarlıq müəssisələrində istehsalın səmərəliliyinin əsas meyarları və göstəricilərinin müəyyən olunması məsələləri araşdırılır. Tədqiqatın nəticəsi olaraq aqrar sahədə sahibkarlıq fəaliyyətinin iqtisadi səmərəliliyinin dəyərləndirilməsi üçün əsas göstəricilərin seçilməsi ilə bağlı təklif hazırlanmışdır.*

***Açar sözlər:*** *kənd təsərrüfatı, meyar, göstərici, sahibkarlıq, sahibkarlıq fəaliyyəti, səmərəlilik.*

## Giriş

Müasir şəraitdə sahibkarlıq, risk şəraitində gəlir əldə etməyə yönəlmiş, öz adından və mülkiyyət məsuliyyəti altında həyata keçirilən təşəbbüskar fəaliyyətdir. Sahibkarlıq strukturlarının səmərəli fəaliyyətinin əsas göstəricisi istehsalın həcmini, mənfəəti artırmaq və xərcləri minimuma endirmək üçün real imkanların mövcudluğudur. Bazar münasibətlərinin inkişafı ilə iqtisadiyyatın aqrar sektorunda sahibkarlıq fəaliyyətinin səmərəliliyinin real qiymətləndirilməsinə ehtiyac artır.

Aqrar sahədə sahibkarlığın səmərəliliyi, bu sahədə fəaliyyətin əsas məqsədinə (mənfəətin artırılması) çatmaq baxımından qiymətləndirilir. Digər tərəfdən, bu səmərəlilik sahədə və bazarın müvafiq seqmentində fəallığın xarakteri və səviyyəsindən asılıdır [1].

Bazar münasibətlərinin inkişafının indiki mərhələsində sahibkarlıq müəyyən bir işgüzar mühitdə mövcud olur və inkişaf edir. İqtisadiyyatın aqrar sektorunda sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi kənd təsərrüfatı və onunla istehsal-texnoloji bağlılığı olan sənaye sahələrində yaranan iqtisadi münasibətlər nəzərə alınmaqla həyata keçirilməlidir. İstehsal sahibkarlığı, sahibkarın birbaşa məhsul istehsalı, iş yerinə yetirməsi və əmtəə olaraq sonrakı satışa çıxarılmasını nəzərdə tutan xidmətlər göstərilməsində iştirak etdiyi fəaliyyətləri əhatə edir.

Aqrar sahədə, bazar iqtisadiyyatının inkişafı ilə sahibkarlığın səmərəliliyi problemi öncüllük qazanır, çünki iqtisadi fəaliyyətin effektivliyi geniş təkrar istehsalın sürətini və cəmiyyətin ərzaq

ehtiyaclarını ödəmək səviyyəsini müəyyənləşdirir [3]. Buna görə də, bazar münasibətləri şəraitində sahibkarlıq fəaliyyətinin səmərəliliyinin artırılması aktual problemlərindən biri olaraq qalır.

Məqalədə əsas məqsəd bazar iqtisadiyyatı şəraitində kənd təsərrüfatında sahibkarlıq fəaliyyətlərinin inkişafına əsaslanaraq, səmərəlilik meyarları və göstəricilərinin müəyyən edilməsi məsələlərinin araşdırılması və bununla bağlı təkliflər hazırlamaqdır.

Araşdırmada sistemli yanaşma, müqayisəli təhlil, sintez və digər elmi tədqiqat metodlarından istifadə edilmişdir.

**Problemin təhlili**

Aqrar sahədə sahibkarlıq subyektlərinin iqtisadi səmərəliliyinin mahiyyəti ilk növbədə onun meyarları ilə də ifadə olunur. Meyar - elə bir xüsusiyyətdir ki, ona əsaslanaraq kənd təsərrüfatı məhsulları istehsalının səmərəliliyinin qiymətləndirilməsi həyata keçirilir.

Ümumi olaraq aqrar sahədə iqtisadi səmərəlilik mürəkkəb, çox amilli bir anlayışdır. Bu istiqamətdə müxtəlif fikirlərin təhlilini əsas tutaraq kənd təsərrüfatı istehsalının səmərəliliyinin mahiyyətini aqrar iqtisadiyyatın təşkilati və iqtisadi quruluşunun yaxşılaşdırılması meyarı kimi aydınlaşdırmaq mümkündür [2]. Bu, baxımdan səmərəlilik müəssisənin, sahənin, iqtisadi sferanın inkişaf səviyyəsinin kəmiyyət baxımından qiymətləndirilməsindən başqa, aqrar sahədə fəaliyyətin keyfiyyət xüsusiyyətlərini də əks etdirir.

İqtisadiyyatın digər bölmələri kimi aqrar sahədə sahibkarlıq fəaliyyətinin səmərəliliyinin səviyyəsi təkrar istehsal prosesinin xüsusiyyətləri ilə müəyyən edilir [4]. İstehsalın mövsümiliyi, yüksək əməktutumluluğu və məhsulların tez xarab olan xüsusiyyətləri nəzərə alınaraq bu sahədə sahibkarlığın iqtisadi səmərəlilik meyarlarını və eyni zamanda onun sosial səmərəlilik ilə əlaqəsini aşağıdakı kimi təsvir etmək olar ***(Sxem)***.

**Sxem. Aqrar sahədə sahibkarlıq fəaliyyətinin səmərəlilik meyarları**




***Mənbə:*** *Müəllif tərəfindən hazırlanıb.*

Məhsul istehsalının həcmi resursların səmərəli istifadəsindən və onların müxtəlif növləri arasında əlverişli nisbətlərin formalaşdırılmasından asılıdır. Eyni zamanda bazar şəraitində son maliyyə nəticəsi əhəmiyyətli dərəcədə resursa qənaət edən texnologiyaların istifadəsi və mükəmməl marketinq siyasəti aparmaqla, daha doğrusu, menecmentin səviyyəsi ilə müəyyən edilir.

Torpaq, əmək, kapital kimi faktorların hər birinin verimliliyini xarakterizə edən xüsusi göstəricilər, səmərəlilik səviyyəsini tam xarakterizə etmir. Buna görə bütün amillərin məcmu təsirini əks etdirən ümumiləşdirici göstəriciyə də ehtiyac yaranır.

Kənd təsərrüfatında iqtisadi səmərəliliyin aşağıdakı növləri fərqlənir: kənd təsərrüfatının ümumi və onun müəyyən sahələrinin, müəssisələrin təsərrüfat fəaliyyətinin, təsərrüfatdaxili bölmələrin, müəyyən məhsul növlərinin istehsalının, müxtəlif resurslardan istifadənin səmərəliliyi.

İqtisadi səmərəlilik meyarları və göstəricilərinin əhatəli açıqlanması baxımından kənd təsərrüfatına funksional (texnoloji, iqtisadi, sosial, ekoloji) və təşkilati (təsərrüfatçılığın formaları və idarəetmə) altsistemlərindən ibarət olan sosial-iqtisadi sistem kimi baxıla bilər.

<u>Texnoloji altsistem</u> - resursların müəyyən bir nəticəyə (məhsullar, iş, xidmətlər) çevrilməsini təmin edən resurs potensialı, texnologiya və istehsalının təşkilinin məcmusudur. Normativ və faktiki texnoloji səmərəlilik fərqləndirilir. Texnoloji səmərəlilik göstəriciləri əkinçilik və heyvandarlıq sistemlərinin elementlərinin fəaliyyətini qiymətləndirmək üçün istifadə olunur. Texnoloji səmərəliliyin səviyyəsi, faktiki məlumatların rasional intensivlik səviyyəsinə və ya orta hava şəraitinə uyğun məhsul istehsal səviyyəsi kimi istifadə olunan müvafiq normativ göstəricilərlə müqayisə edilməklə müəyyən edilir.

<u>İqtisadi altsistem</u> - iqtisadi əlaqələrin məcmusu və aqrar istehsal qurumunun optimal işləməsini və inkişafını təmin etməyə yönəlmiş iqtisadi idarəetmə mexanizminin elementlərinin müvafiq sistemidir. İqtisadi səmərəlilik iqtisadi maraqların reallaşma dərəcəsini əks etdirir, məhsul istehsalı və satışının səmərəliliyini xarakterizə edən baza göstəriciləri sistemi ilə ölçülür (maya dəyəri, ümumi məhsul, ümumi gəlir, mənfəət, rentabellik, əmtəə istehsalçısının maliyyə vəziyyətinin göstəriciləri - maliyyə sabitliyi və ödəmə qabiliyyəti).

<u>Sosial altsistem</u> - əhalinin sosial-ərazi birliyinin (şəhər, kənd) elementləri: ailə, sosial tiplər, sosial infrastruktur və onun fəaliyyətini təmin edən kadrlar. Xüsusən kənd təsərrüfatı təşkilatları və müəssisələri ilə əlaqədar olaraq, sosial altsistem müəssisənin kollektivi, sosial infrastruktur və uyğun işçi heyətini əhatə edir. Sosial səmərəlilik - sosial vəziyyəti, müəyyən ərazidə qəbul olunan təsərrüfatçılıq formasına vahid münasibət bəsləyən əhalinin məcmusunu, kənd sosial-ərazi birliyinin normativ inkişaf səviyyəsinə çatma dərəcəsini xarakterizə edir və əhalinin yaşayış səviyyəsi göstəriciləri ilə ölçülür. Sosial səmərəliliyin meyarı kənd sosial-ərazi icmasının normativ inkişaf səviyyəsinə çatma dərəcəsidir, yəni əhalinin demoqrafik, iqtisadi və sosial yaşayış səviyyəsinin göstəriciləridir.

<u>Ekoloji altsistem</u> - təbii mühitin qorunub saxlanılması və inkişafını təmin edən, təbiəti qorumaq və təbiəti bərpa etmək fəaliyyətinin, təbii torpaq potensialı və ehtiyatları elementlərinin məcmusudur.

Ekoloji səmərəlilik təbii mühitin qorunması, təbii sərvətlərdən istifadə səviyyəsi, ekoloji cəhətdən təmizliyin artması və istehsal olunan məhsulların təbii resurs tutmluluğunun azalması, məhsulların keyfiyyətinin və yaşayış mühitinin yaxşılaşdırılması ilə xarakterizə olunur. Ətraf mühitin səmərəliliyinin meyarı ətraf mühitin deqradasiyasının qarşısının alınması, onun yaxşılaşdırılması, istehsalın ekoloji cəhətdən təmizliyini, məhsul keyfiyyətini artırmaqdır.

Xüsusi olaraq qeyd etmək lazımdır ki, torpaq aqrar sektorun əsas istehsal vasitəsidir. Kənd təsərrüfatının iqtisadi vəziyyəti torpağının nə dərəcədə səmərəli istifadə olunmasından çox asılıdır.

Torpaq ehtiyatlarından səmərəli istifadə, onların məhsuldarlığının qorunması və yaxşılaşdırılması həmişə aktual məsələlər hesab olunur [5].

İdarəetmə altsistemi - texnoloji, iqtisadi, sosial və ekoloji altsistemlərin fəaliyyət formasıdır (təsərrüfatçılıq və fəaliyyətin təşkili formaları).

İqtisadiyyatın aqrar sektorunda istehsal sahibkarlığının səmərəliliyini qiymətləndirən əsas göstəricilərə bunların aid olunmasını məqsədəuyğun hesab edirik: *əmək məhsuldarlığı; əmtəə vahidinin maya dəyəri; resurs vahidinə düşən sahibkarlıq gəliri; torpaqdan istifadə göstəriciləri; əsas fondlardan istifadənin göstəriciləri; dövriyyə kapitalından istifadənin səmərəlilik göstəriciləri; əsas fondların və dövriyyə vəsaitlərinin hər vahidinə düşən ümumi gəlir; xalis gəlir; rentabellik səviyyəsi.*

Beləliklə, təklif olunan göstəricilər sahibkarlıq fəaliyyətinin səmərəliliyinə dair mikro və sahə səviyyələrində dəyərləndirmələr aparmağa imkan açır. Sahibkarlıq praktikasında fəaliyyətin səmərəliliyinin qiymətləndirilməsi üçün istifadəsi məqsədəuyğun hesab edilən başlıca göstəriciləri xüsusi olaraq ayırmaq lazımdır:

a) rentabellik səviyyəsi - bu, göstərici bütün kənd təsərrüfatı istehsalının, eləcə də müəyyən məhsul növləri daxil olmaqla bitkiçilik və heyvandarlıq sahəsi kontekstində iqtisadi səmərəliliyi müəyyənləşdirməyə imkan verir;
b) sahibkarın gəlirinin səviyyəsi - bu göstərici sahibkarlıq fəaliyyətinin inkişafına və özünüzənginləşdirməyə yönəldilmiş hərəkətverici motiv rolunda çıxış edir;
c) gəlir əsasında hesablanan fondverimi - fikrimizcə, təsərrüfatların inkişafı ilə əlaqədar olaraq, qiymətləndirmədə pul daxilolmalarında mənfəət deyil, gəlirin bütün miqdarı vacibdir. İşəgötürən və işçi eyni şəxs olduqda gəliri əməkhaqqı və mənfəətə bölmək deyil, ümumi gəlirin tam məbləği ilə maraqlanılır. Bu səbəbdən əsas fondlar və dövriyyə vəsaitlərinin vahidinə düşən gəlirin hesablanması vacibdir.

Yuxarıda qeyd edilənlər nəzərə alınmaqla, səmərəliliyin növləri üzrə müvafiq göstəricilərin təsnifatı aşağıdakı cədvəldə verilmişdir.

**Cədvəl. Kənd təsərrüfatında istehsalın səmərəliliyinin növlərinin və göstəricilərinin təsnifatı**

| Səmərəliliyin növü | Səmərəlilik göstəriciləri |
|---|---|
| Texnoloji | Kənd təsərrüfatı məhsullarının istehsalı üzrə işlərin əmək tutumluluğu |
| Sosial | Təsərrüfatda çalışan işçilərin orta aylıq əmək haqqının sahə üzrə orta əmək haqqına nisbəti |
| İqtisadi | Təsərrüfatların resursverimi göstəriciləri:<br>– 1 ha əkin sahəsinə düşən mal, iş və xidmət satışından əldə olunan gəlir,<br>– ümumi mənfəətin təsərrüfatda çalışan işçilərinin orta illik sayına nisbəti,<br>– xalis mənfəətin əsas fondların orta illik dəyərinə nisbəti |
| Ekoloji | Hər 100 ha əkin sahəsinə düşən torpağın münbitliyinin artırılmasına yönəldilən vəsaitin miqdarı |
| Maliyyə | Maliyyə müstəqilliyi əmsalı |
| İnstitusional | Kənd təsərrüfatı məhsullarının satışından əldə olunan gəlirlərin malların, iş və xidmətlərin satışından əldə olunan ümumi gəlirin məbləğindəki payı |

***Mənbə:** [4]*

Sahibkarlıq fəaliyyətin əsas subyekti kimi sahibkarın bilik və bacarıqları ilə birbaşa əlaqədar olan bir prosesdir. İstehsalın kənd təsərrüfatı sektorundakı iqtisadi vəziyyətinin sabitləşməsində böyük rol müvafiq qabiliyyət, bilik, peşəkarlıq və təcrübəyə malik olan sahibkarlara həvalə olunur. Sahibkar mal istehsal etmək üçün istifadə olunan amillərin optimal birləşməsini təmin etməli, müxtəlif iqtisadi agentlərin - müəssisələr, təşkilatlar, vətəndaşların ehtiyaclarını ödəmək üçün xidmətlər göstərməli və ya işlər yerinə yetirməlidir. Başqa sözlə, dinamik və qeyri-müəyyənliyin mövcud ola bildiyi bir mühitdə yeni imkanların axtarışı, xarici mühitdəki dəyişikliklərə sürətli reaksiya vermək bacarığı, müəssisələrin fəaliyyətinə sahibkarlıq münasibətində yanaşmada həlledicidir. Bu yanaşma, sahibkarlıq ideyasını, maliyyə mənbələrini, maddi, əmək və torpaq ehtiyatlarını kənd təsərrüfatı məhsullarının istehsalı üçün birləşdirməyə imkan verir.

Xüsusi olaraq qeyd etmək lazımdır ki, mənfəət əldə etmək üçün hər hansı bir iş qurmaq sahibkarın yeganə məqsədi deyil: o, öz işçilərinin sağlamlıqlarının qorunması, iş yerlərinin saxlanılması və əmək fəaliyyəti ilə bağlı bir sıra sosial məsələlərin həllində iştirak edir.

**Nəticə**

Aqrar sahədə sahibkarlıq fəaliyyətinin səmərəliliyinin hərtərəfli öyrənilməsi üçün istehsal fəaliyyətinin müxtəlif aspektlərini əks etdirən aydın bir göstəricilər sisteminə ehtiyac var. Burada əsas vəzifə ayrı-ayrı istehsal amillərinin istifadəsini xarakterizə edən müxtəlif kəmiyyət göstəricilərinə əsaslanan istehsal səmərəliliyinin ümumiləşdirilmiş göstəricisini əldə etməkdir. Eyni zamanda aşağıdakıları təmin etmək lazımdır: iqtisadi interpretasiya imkanı, onun müxtəlif idarəetmə səviyyələrində uyğunluğunu, kəmiyyət qiymətləndirmələrinin kifayət qədər etibarlılığını. Nəzərə almaq lazımdır ki, əldə olunan nəticələrin şərti olması səbəbindən səmərəliliyin ümumiləşdirici göstəricisini təyin etmək çox çətindir.

Tədqiqatlar göstərir ki, kənd təsərrüfatında sahibkarlıq fəaliyyətinin məqsədi alıcının ehtiyaclarını (tələbini) ödəmək, eyni zamanda, tələb yaradan və sahibkara mənfəət gətirən məhsulları bazara təqdim etməkdir. Bununla birlikdə, mənfəət əldə etmək yalnız sahibkar üçün deyil, bir çox digər iqtisadi fəaliyyət növləri üçün də xarakterikdir. Bu baxımdan sahibkarlıq gəliri göstəricisinin istifadəsini vacib sayırıq. Sahibkarlıq gəlirinin miqdarı sahibkarın işində yeniliklərdən istifadə etmə, risk etmək bacarığından, eləcə də, sahibkarın vaxtında düzgün qərar qəbul etməsindən asılıdır. Qərar qəbul edərkən sahibkar, yalnız tərəfdaşları qarşısında deyil, cəmiyyət qarşısında da, bu qərarların nəticələrinə görə cavabdeh olmağa hazır olduğunu bildirir.

**Ədəbiyyat**

1. Mirzəyev N.S. Azərbaycanda taxılçılıq sahəsində sahibkarlıq subyektlərinin fəaliyyət istiqamətləri. Bakı, "Elm və təhsil", 2017. 168 s.
2. Аграрная экономика: учебник / под ред. М.Н. Малыша. – СПб.: Лань, 2002. 688 с.
3. Асаул А.Н. / Организация предпринимательской деятельности: учебник для вузов. / А.Н. Асаул. – 4-е изд. – СПб.: Питер, 2013.
4. Эффективность сельскохозяйственного производства (методические рекомендации) /Под ред. И.С. Санду, В.А. Свободина, В.И. Нечаева, М.В. Косолаповой, В.Ф. Федоренко. – М.: ФГБНУ «Росинформагротех», 2013. 228 с.
5. Valiyev Akif, Mirzayev Natig. Evaluation of the Efficient Level of Useful Agricultural Soils. Baltic surveying. International scientific journal. № 01 (volume 12), 2020.

*Ph.D., docent,* N.S. Mirzaev
Lankaran State University

**Criteria and indicators of economic efficiency of entrepreneurship in agriculture**

*Summary*

*The economic efficiency of any activity in a market economy is one of the most important conditions for its implementation. In this regard, the correct assessment of the economic efficiency of entrepreneurial activity is of particular importance. Efficiency - reflects the interaction of natural, organizational, economic and social conditions in the activities of an economic entity. The article examines the issues of determining the criteria and indicators of production efficiency in business entities of the agricultural sector. Based on the results of the study, a proposal was prepared on the choice of key indicators for assessing the economic efficiency of entrepreneurial activity in the agricultural sector.*

**Keywords:** *agriculture, criteria, indicator, entrepreneurship, entrepreneurial activity, efficiency.*

*Д.ф.э.н., доцент* Н.С. Мирзаев
Ленкоранский государственный университет

**Критерии и показатели экономической эффективности предпринимательства в сельском хозяйстве**

*Резюме*

*Экономическая эффективность любой деятельности в рыночной экономике - одно из важнейших условий ее осуществления. В связи с этим особое значение приобретает правильная оценка экономической эффективности предпринимательской деятельности. Эффективность - отражает взаимодействие природных, организационных, экономических и социальных условий в деятельности хозяйствующего субъекта.*

*В статье исследуются вопросы определения критериев и показателей эффективности производства в субъектах хозяйствования аграрного сектора. По результатам исследования подготовлено предложение по выбору ключевых показателей для оценки экономической эффективности предпринимательской деятельности в аграрном секторе.*

**Ключевые слова:** *сельское хозяйство, критерии, показатель, предпринимательство, предпринимательская деятельность, эффективность.*